# Lift kollektiv təsərrüfatdır

## Üzeyir Aslanov: *«Kollektivçiliyə riayət etmək lazımdır. Özünü fikirləşmirsənsə, heç olmasa qonşunu fikirləş»*

**Son vaxtlar qəzetimizdə gedən Liftəmir işləri ilə bağlı yazılarla əlaqədar oxucularımızın redaksiyamıza zənglərinin sayı da artıb. Belə ki, qəzetimiz vasitəsi ilə oxucular liftlərlə bağlı maraqlı fikirlərlə tanış olur və liftə qarşı insanların fikirləri dəyişir. Bu gün də ənənəmizə sadiq qalaraq mövzunu davam etdiririk. Budəfəki qonağımız isə «Lifttəmir» İstehsalat Birliyinin nəzdində olan TEMP dövlət müəssisəsinin rəisi Üzəyir Aslanovdur.**

**Tanıtım:** Üzeyir Aslanov 1965-ci ildə Bakı şəhərində anadan olub. Orta təhsilini Bakıxanov qəsəbəsindəki 96 nömrəli tam orta məktəbdə alıb. Plan-İqtisad Texnikumunu bitirəndən sonra Elmi-Tədqiqat Birliyində işləyib. Sonra isə taleyini lift sahəsi ilə bağlayıb. Burada adi fəhlə kimi işə bağlayıb. Sonra texniki mexanik, sahə rəisi və 2012-ci ildən TEMP dövlət müəssisəsinin rəisi vəzifəsinə təyin olunub.



**- Üzeyir müəllim rəhbərlik etdiyiniz müəssisə nə vaxtdan fəaliyyət göstərir?**

- Bizim müəssisə 1994-cü ildən fəaliyyət göstərir. Elə həmin vaxtdan da liftlərə texniki xidmət göstəririk.

**- Yəqin siz də son vaxtlar qəzetimizdə liftlə bağlı yazılar getdikdən sonra bu işə maraq yarandığını hiss edirsiniz...**

- Doğru deyirsiniz. Artıq bizim xidmət etdiyimiz Dövlət Mənzil Fondunun bütövlükdə Nizami rayonu və Xətai rayonunun bir hissəsində insanların bu yazılara marağını görürük. Onlar bu haqda bizə deyirlər. Artıq bu yazılar da insanlar arasında böyük maarifləndirmə işi aparır.

**- Siz təxminən nə qədər binaya xidmət göstərirsiniz və konkret desək nə qədər liftiniz var?**

- Biz 211 binaya və həmin binalarda olan 1058 liftə xidmət edirik. Bir daha vurğulayım ki, biz yalnız Dövlət Mənzil Fondunda olan binalara xidmət edirik. Özəl binalar və MTK-ların tikdiyi binaların bizə heç bir aidiyyatı yoxdur.

**- Həmin özəl və MTK-ların tikdiyi binalarda yaşayan insanlar sizə müraciət edirlərmi?**

- Bəli, çox edirlər. Biz kooperativ və MTK-ların tikdiyi binalarda yaşayanlara başa salırıq ki, onlara xidmət göstərmək bizim fəaliyyət sferamıza aid deyil. Ancaq buna baxmayaraq biz imkanımız olanda onlara da köməklik edirik. Əgər onların lifti işləmirsə və insanlar yuxarı mərtəbələrə qalxmağa əziyyət çəkirlərsə, onlara kömək etmək bizim vətəndaşlıq borcumuzdur. Axı biz bu işin mütəxəssisləriyik.

**- Son illərdə neçə yeni lift quraşdırmısınız və neçə lifti əsaslı təmir etmisiniz?**

- Son üç il yarım müddət ərzində 478 yeni lift quraşdırmışıq və 195 lifti isə əsaslı təmir etmişik. Bu liftlər də çox yaxşı işləyir və insanlar da bizdən razılıq edirlər. Ümumiyyətlə biz çalışırıq ki, bütün binalarda yaşayan insanlar bizim işimizdən razı qalsınlar və heç bir problem olmasın. Onu da vurğulayım ki, yeni nəsil liftlərin 25 il işləmə müddəti var. Deməli, onları 25 il qorumaq da həmin binada yaşayan insanların müqəddəs borcu olmalıdır.

**- Bəs qeyd etdiyiniz dövrə qədər neçə yeni lift quraşdırılıb və nə qədər liftdə əsaslı təmir işləri görülüb?**

- 2005-ci ildən 2012-ci ilə qədər cəmi 76 təzə lift yenidən quraşdırılıb və 75 lift əsaslı təmir olunub. Amma yuxarıda dediyim kimi biz isə TEMP dövlət müəssisəsinə rəhbərlik etdiyimiz cəmi üç il yarım ərzindən 478 təzə lift quraşdırmışıq və 195 lifti isə əsaslı təmir etmişik. Bu əlbəttə, artıq bizim işin böyük göstəricisi deməkdir.

**- Göstərdiyiniz rəqəmlər deməyə əsas verir ki, siz qısa vaxtın içərisində böyük işlər görmüsünüz. Bəs necə oldu ki, siz qısa zaman çərçivəsində belə böyük işlər görə bildiniz?**

- Bizim işlərimizin belə uğurlu getməsində ilk öncə Azərbaycan Respublikasının prezidenti İlham Əliyev cənablarının sosial-iqtisadi inkişafa nail olmaq üçün imzaladığı Dövlət Proqramlarının böyük rolu var. Həmin fərman və sərəncamlar çərçivəsində artıq bizim də liftservis işlərində böyük işlər görülür. Buna görə də əhaliyə xidmət səviyyəsi də yüksəlib. Biz də bu Dövlət Proqramından yaxşı istifadə edib, işlərimizi yüksək səviyyədə qurduq və belə uğurlu nəticələr əldə edə bildik. Əlbəttə, bizə dövlət səviyyəsində vəsaitlər ayrılmasaydı biz bu işləri görə bilməzdik. Artıq gördüyümüz işlərin də uğurlu nəticəsi göz qabağındadır.

**- Nizami Bakı şəhərinin köhnə rayonlarından biridir. Bu rayonda əvvəllər köhnə liftlər çox olubmu?**

- Əlbəttə, çox idi. Çünki keçən əsrin 60-cı illərindən başlayaraq, binalara quraşdırılan liftlərin səviyyəsi bərbad gündə idi. Adam onun içinə baxanda qorxurdu, nəinki ona minib yuxarı mərtəbələrə çıxmağa. Çünki hamısı təhlükə potensiallı liftlər idi. Biz də həmin liftləri tam yeniləri ilə əvəz elədik. Demək olar ki, binalarımızda keçən əsrin 70-ci illərində qoyulan liftlər qalmayıb. Artıq bu il də müvafiq sənədləşdirmə işləri aparılır və biz də hər ay təhlükə potensialı olan liftləri aşkar edib, onları həmin siyahıya salırıq ki, yenilərilə əvəz edək. Yaramayanları tam yenisi ilə əvəz edirik. Ya da təmirə ehtiyacı olanı əsaslı təmir edirik.

**- Biz artıq sizin müəssisələri gəzdikcə görürük ki, orada çox yaxşı mütəxəssislər işləyir. Siz öz mütəxəssisləriniz haqqında nə deyə bilərsiniz?**

- Mən özüm liftservis sahəsində işə 23 il bundan qabaq lift ustası, mexaniki kimi başlamışam. Elə ustalarımız var ki, onları vaxtı ilə mən yetişdirmişəm. Mən də bu işi əvvəllər bizdə işləyən və artıq dünyalarını dəyişən mütəxəssislərdən öyrənmişəm. Həmin vaxt mənimlə birlikdə bu sahəyə gələn adamları isə artıq barmaqla saymaq olar. Çünki həmin vaxt respublikada vəziyyət ağır idi. Maaşlar vaxtlı-vaxtında verilmirdi. Ona görə də liftservis sahəsində çalışan mütəxəssislərin çoxu qalıb burada işləmək istəmirdilər və işdən çıxıb getdilər. Ulu öndər Heydər Əliyev hakimiyyətə gələndən sonra bütün sahələrdə olduğu kimi bizim sahədə də dirçəliş başladı. İndi vəziyyət yaxşıdır və maaşı vaxtlı-vaxtında veririk. Liftlərin alınması və əsaslı təmir olunması ilə bağlı da dövlət tərəfindən bizə pullar ayrılır. 2004-2005-ci illərdən başlayaraq, artıq bizdə cavan kadrlar yetişməyə başlayıb. Ona görə də öz işlərini yüksək səviyyədə bilən ustalarımız var. Biz onlarla fəxr edirik. Əgər lazım gəlsə, biz onları xarici ölkələrə də göndərə bilərik və onlar orada öz peşəkarlıqları ilə başımızı uca edərlər. Çünki yeni nəsil liftləri onlar yüksək ustalıqla quraşdırırlar və köhnə liftləri də çox yaxşı, əsaslı təmir edirlər.

**- Maraqlı bir mövzuya toxundunuz. Yeni nəsil liftlərlə bağlı bizim insanlar arasında da bəzən problemlər olur. Onlar bu liftlərdən düzgün istifadə etmədiklərinə görə, bu liftləri sıradan çıxarırlar. Sizin xidmət etdiyiniz rayonlarda da belə hallar olurmu?**

- Çox acınacaqlı haldır ki, bizim xidmət etdiyimiz rayonlarda da belə hallar olur. Əvvəllər Sovet dövlətinin vaxtında qurulan liftlər vardı və hansılar ki, biz dəyişib, orada yeni nəsil liftlər quraşdırırıq. Orada da insanlarımız tərəfindən bəzən problemlər olur. Bilirsiniz ki, elektrik sistemi nəmişlikdən qorxur. İndi quraşdırdığımız liftlər elektron sistemlidir. Ona görə də onların yeri quru olmalıdır. Orada su, nəmişlik olmamalıdır. Sakinlərimizin də bunu bilməməyi ucbatından, mərtəbə meydançasını yuyub, çirkli suyu liftlər olan şaxtanın içinə tökürlər. Ya da mərtəbə meydançalarında su çənləri quraşdırırlar. Həmin su çənlərindən daşan sular da liftlərin üstünə, şaxtalara tökülür. Bunlar da liftləri sıradan çıxarır. Əvvəlki, Sovet dövründəki liftləri heç olmasa söndürüb, qurudub təzədən işə sala bilirdik. Amma bunlar elektron tipli liftlər olduğuna görə, bunları işə salmaq bizə çox çətin başa gəlir. Buna görə böyük maliyyə xərcləri tələb olunur. Ona görə də mən insanlarımıza tövsiyə edirəm ki, belə şeylərdən çəkinsinlər. Çirkab suları şaxtalara tökməsinlər. Mərtəbə meydançasında su çənləri quraşdırmasınlar. Bu haqda biz insanlarımızla maarifləndirmə işi də aparırıq. Aşkar etdiyimiz su çənlərini Mənzil Kommunal İdarələrinin işçiləri tərəfindən sökdürürük. Amma çox təəssüf. Çünki adamlar var ki, heç kimi eşitmək istəmirlər. Təsəvvür edin ki, yuxarı mərtəbədə yaşayan sakinlər evlərini təmir edəndə də, yeni aldıqları ağır çəkili inşaat materialları və evdən çıxan lazımsız zir-zibilləri də liftlər vasitəsi ilə qaldırıb-düşürürlər. Bununla da onlar lift qurğularını gücə salırlar. Həmin liftlərin də elektrik mühərrikləri sıradan çıxır. Ümumiyyətlə mən sakinlərimizə tövsiyə edirəm ki, yayda liftlərlə ağır şeylər qaldırmaqdan çəkinsinlər. Çünki isti havalarda mühərrik havadan da qızır və onu gücə salanda tez sıradan çıxır.

**- Öz liftlərinə səliqəli qulluq edən sakinlər necə, varmı?**

- Bəli var. Amma onlar çox deyil. Lift kollektiv təsərrüfatdır. Ona görə də burada bir qədər kollektivçiliyə riayət etmək lazımdır. Liftin texniki xidmət haqqı vaxtlı-vaxtında verilməlidir. Əgər insan özünü fikirləşmirsə heç olmasa qonşusunu fikirləşsin. Ola bilər ki, qonşusu xəstədir və ya yaşlıdır. Həmin adamlar da bir pilləkən belə qalxa bilmirlər. Biz istərdik ki, belə düşünən insanlarımız çox olsun və onda onların liftlərində heç bir problem olmaz. Kimsə onlardan soruşanda ki, liftləriniz işləyirmi? Onda onlar qətiyyətlə cavab verə bilərlər. Bəli, bizim liftlər işləyir. Bizim liftlərdə heç bir problem də olmayacaq, çünki biz özümüz - öz liftlərimizi qoruyuruq. Onlara siqaret kötükləri atmırıq, siqareti liftin divarlarında söndürmürük. Liftin təmizliyinə həmişə nəzarət edirik. Onun lampalarını çıxarıb evimizə aparmırıq. Biz lifti öz evimiz və evimizdə olan qiymətli bir əşya kimi qoruyuruq. Axı dünyanın sivil ölkələrində insanlar liftlərini özləri qoruyurlar. Məgər bu, bizdə mümkün deyilmi?..

MƏMMƏDHƏSƏN